**Əməkdaşlığımızın davamlı olacağına ümidvaram**

Elmira Süleymanova: «İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının həyata keçirilməsində Vergilər Nazirliyinin mğstəsna rolu var»

Ölkə başçısının sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı»nın icrası ilə bağlı məsələləri şərh etmək üçün Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Elmira Süleymanovaya müraciət etdik.

- Elmira xanım, insan hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı Milli Fəaliyyət Proqramında müəyyən edilmiş yeni istiqamətlər barədə məlumat verməyinizi xahiş edirik...
- Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş 27 dekabr 2011-ci il tarixli Milli Fəaliyyət Proqramı insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırılması, hüquq mədəniyyətinin inkişaf etdirilməsi, normativ-hüquqi bazanın və hüquq-müdafiə sisteminin təkmilləşdirilməsi istiqamətində tədbirlərin davamlılığının təmin edilməsi məqsədini daşıyır. Hər hansı beynəlxalq öhdəliklə deyil, Azərbaycanın öz təşəbbüsü ilə qəbul etdiyi insan hüquqları üzrə Milli Fəaliyyət Proqramı ölkədə insan hüquq və azadlıqlarının təmin olunmasını, sözün əsl mənasında, keyfiyyətcə yeni mərhələyə çıxarmışdır. Proqramın icrasının çevik və işlək olması üçün tərəfimizdən bir sıra tədbirlər həyata keçirilərək, uğurla yerinə yetirilir.

Milli Fəaliyyət Proqramında nəzərdə tutulmuş müxtəlif istiqamətlər üzrə vəzifələrin icrası perspektivlərinin müzakirəsi məqsədilə millət vəkillərinin, müvafiq dövlət orqanlarının, vətəndaş cəmiyyətinin və KİV nümayəndələrinin iştirakı ilə silsilə tədbirlər təşkil edilmişdir. Keçirilən tədbirlərin ictimaiyyətə ətraflı çatdırılması, insanların bu sahədə məlumatlandırılması və maarifləndirilməsi üçün həm televiziya kanallarında, həm də mətbuat səhifələrində geniş materiallar verilmişdir.

Bundan başqa, qeyd olunan sənədlə baglı xüsusi mövzuların ali məktəblərin tədris proqramlarına salınması Təhsil Nazirliyi ilə razılaşdırılmışdır. Nəticədə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında, Ədliyyə və Polis akademiyalarında təhsil alan tələbələr, müdavimlər və kurs keçən dövlət qulluqçuları üçün Milli Fəaliyyət Proqramı ilə bagli ətraflı məlumatlar verilmiş və mühazirələr oxunmuşdur.

- Proqramın həyata keçirilməsinin əlaqələndirilməsi, monitorinqi və qiymətləndirilməsi işi necə tənzimlənir?
- Ölkə başçısının sərəncamına əsasən, proqramın həyata keçirilməsinin əlaqələndirilməsi üzrə işçi qrupun fəaliyyətinə rəhbərlik etmək Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinə tövsiyə olunmuşdur. Qarşıya qoyulmuş vəzifələri rəhbər tutaraq, proqramın həyata keçirilməsinin əlaqələndirilməsi üzrə işçi qrup və onun nəzdində bir neçə alt qruplar yaradılmaqdadır. Həmçinin, proqramın icrası vəziyyətinin monitorinqi məqsədilə Gəncə, Şəki, Bərdə, Cəlilabad, Quba və Bakıda ölkəmizin bütün rayon və şəhərlərini əhatə edən regional ictimai dinləmələr keçirilmişdir. Proqramın təbliği və səmərəli icrası üçün ictimai dinləmələrə yerli icra hakimiyyəti, bələdiyyələr, məhkəmə, daxili işlər və prokurorluq orqanlarının, yerli qeyri-hökumət təşkilatlarının, kütləvi informasiya vasitələrinin, icmaların və digər müvafiq qurumların nümayəndələri də cəlb olunmuşdur. Ölkəmiz üçün yenilik olan ictimai dinləmələr iştirakçıların fəallığı şəraitində keçmiş və böyük marağa səbəb olmuşdur.

Yeri gəlmişkən, Milli Fəaliyyət Proqramının həyata keçirilməsinin əlaqələndirilməsi üzrə işçi qrup öz fəaliyyəti barədə müntəzəm olaraq Azərbaycan Respublikasının Prezidentinə məlumat verir və aşkarlığın təmin edilməsi məqsədilə proqramın icrası üzrə məlumatlar müntəzəm olaraq www.ombudsman.gov.az internet səhifəsində yerləşdirilir.

- İnsan hüquqları ilə bağlı beynəlxalq təsisatlarla hansı əlaqələr qurulmuşdur?

- Milli Fəaliyyət Proqramında insan hüquqları sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlıqla bağlı mühüm vəzifələr müəyyənləşdirilmişdir. Bu prosesdə beynəlxalq təşkilatların daha yaxından iştirakının təmin edilməsi, birgə müzakirələrin keçirilməsi nəzərdə tutulmuşdur.

Bu yaxınlarda Azərbaycanın təşəbbüsü ilə ATƏT-in İnsan ölçüsü komitəsində Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının təqdimatına həsr olunmuş tədbir keçirilmişdir. Azərbaycan Ombudsmanının təqdimatında iştirakçıların diqqətinə 20 illik müstəqillik dövründə ölkəmizdə insan hüquq və azadlıqlarının daha səmərəli təmini sahəsində qəbul olunmuş strateji əhəmiyyətli üç sənəd - Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 18 iyun tarixli sərəncamı ilə təsdiq edilmiş «İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı», 28 dekabr 2006-cı il tarixli sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planı» və 27 dekabr 2011-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı» haqqında ətraflı məlumat çatdırılmışdır.

16 fevral 2012-ci il tarixdə Macarıstanda keçirilmiş beynəlxalq konfransda, 19-22 mart 2012-ci il tarixlərində Cenevrədə təşkil olunmuş BMT-nin Milli İnsan Hüquqları Təsisatları Beynəlxalq Əlaqələndirmə Komitəsinin 25-ci sessiyasında Milli Fəaliyyət Proqramı geniş şərh edilmişdir.

- Artıq bir neçə ildir ki, Sizin təşəbbüsünüzlə Azərbaycanda «İnsan hüquqları aylığı» keçirilir. Aylıq çərçivəsində hansı tədbirlər reallaşdırılmışdır?

- Bu aylığın keçirilməsində məqsəd il ərzində insan hüquqları sahəsində əldə edilmiş nailiyyətləri, problemləri və onların həlli yollarını müəyyənləşdirməkdir. Aylıq çərçivəsində həm dövlət qurumları, həm də vətəndaş cəmiyyəti institutları tərəfindən silsilə tədbirlər həyata keçirilir və bu prosesə cəmiyyətin bütün təbəqələri cəlb olunur. İnsan hüquqları ilə bağlı qurumlar, habelə dövlət orqanları, QHT-lər və digər təşkilatlar tərəfindən keçirilən tədbirlər ölkəmizdə insan hüquqlarının təbliğinə, əhalinin müxtəlif qruplarının hüquqlarının müdafiəsinə və onların problemlərinin həllinə yönəldilir. Əldə edilmiş uğurlar, mövcud çətinliklər barədə məlumatlar Ombudsmana təqdim olunur və bunların əsasında səlahiyyətli orqanlara müvafiq tövsiyələr verilir.

Cari ildə də bu təcrübə davam etdirilmişdir. «İnsan hüquqları aylığı» çərçivəsində yerli və mərkəzi icra hakimiyyəti orqanları, vətəndaş cəmiyyəti qurumları ilə birgə Milli Fəaliyyət Proqramının təbliği istiqamətində bir sıra səmərəli tədbirlər həyata keçirilmişdir. Artıq həmin tədbirlərlə bağlı müvafiq qurumlardan məlumatlar alırıq.

Vergilər Nazirliyi də Ombudsmanın irəli sürdüyü təşəbbüsü dəstəkləyərək ölkəmizin bütün regionlarında «İnsan hüquqları aylığı» çərçivəsində vergi ödəyiciləri üçün silsilə tədbirlər təşkil etmişdir. Bu görüşlərdə vergi ödəyicilərinə onların hüquq və vəzifələri izah edilir, şikayət və müraciətləri araşdırılaraq, konkret tədbirlər görülür. Hətta ötən il Vergilər Nazirliyinin Aparatında KİV nümayəndələri və vergi ödəyiciləri üçün «Açıq qapı» günü keçirilib. Mərasimdə Ombudsman Aparatının rəhbər vəzifəli şəxsləri də iştirak etmişlər.

Tədbirdə «195» Telefon-məlumat xidmətinin fəaliyyəti və vergi ödəyicilərinə göstərilən digər xidmətlərlə bağlı geniş məlumatlar verilmiş, KİV nümayəndələrinin və tədbirə qatılanların sualları cavablandırılmışdır. Bu il də Vergilər Nazirliyi aylıq çərçivəsində mühüm tədbirlər həyata keçirmiş, vergi ödəyicilərinin hüquqlarının müdafiəsi üçün lazım olan bütün addımları atmışdır.

- Vergilər Nazirliyinin vergi ödəyicilərinin hüquqlarının müdafiəsi ilə bağlı həyata keçirdiyi tədbirləri necə qiymətləndirirsiniz?

- Hazırda Azərbaycanın vergi sistemi dövlət büdcəsinin formalaşmasında müstəsna rol oynayır. Bugünkü vergi siyasəti ölkəmizin iqtisadi inkişafına çox böyük təsir göstərir. Dayanıqlı və səmərəli vergi sisteminin formalaşması respublikamızın büdcə təşkilatlarının - təhsil və səhiyyə sisteminin, o cümlədən ölkəmizin müdafiə qabiliyyətinin yüksəldilməsində mühüm əhəmiyyət kəsb edən ordumuzun saxlanılması və inkişaf etməsi deməkdir.

Biz ildən-ilə öz işini daha da səmərəli təşkil edən vergi orqanlarının fəaliyyətini yüksək qiymətləndiririk. Vergi qanunvericiliyinin təkmilləşdirilməsi, vergi sisteminin Avropa standartlarına uyğunlaşdırılması, texniki potensialının gücləndirilməsi, vergi auditinin inkişaf etdirilməsi, müasir

informasiya-kommunikasiya texnologiyalarının davamlı tətbiqi, vergi ödəyicilərinə xidmət sahələrinin, o cümlədən elektron xidmətlərin əhatə dairəsinin genişləndirilməsi vergi ödəyiciləri tərəfindən razılıqla qarşılanır. Son vaxtlar vergi və rüsumların dövlət büdcəsinə elektron formada köçürülməsi metodları təkmilləşdirilmiş, vergi ödəyicilərinə xidmət mərkəzlərinin yaradılması prosesi genişlənmişdir ki, bütün bu addımlar təqdirəlayiqdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən bütün bu işlər vergi daxilolmalarının həcminin artması, ölkəmizin daha da qüdrətlənməsi, maliyyə dayaqlarının möhkəmlənməsi ilə nəticələnir.

Ombudsmanın insan hüquqları sahəsində təşkil etdiyi tədbirlərdə, o cümlədən ölkəmizdə İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının həyata keçirilməsində Vergilər Nazirliyinin müstəsna rolu var. İnsan hüquqlarının, o cümlədən vergi ödəyicilərinin hüquqlarının müdafiəsi sahəsində əməkdaşlığımızın davamlı olacağına ümidvaram.

Müsahibəni hazırladı:
Rəşad SADIQOV